# İDMAN ENERJİ MƏNBƏYİDİR




**«İdman elə bir sahədir ki, idmançılarımız müxtəlif ölkələrdə yarışlarda iştirak edir, qələbələr qazanırlar və hər dəfə müstəqil Azərbaycanın adını ucaldırlar. Müstəqil Azərbaycanın Himni çalınır, müstəqil Azərbaycanın bayrağı qaldırılır və müstəqil Azərbaycan dünyanın müxtəlif ölkələrində tanınır. Deməli olar ki, idman kimi Azərbaycanın müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur».**

Yəqin ki, idmanın yaşı bəşərin yaşı qədərdir. Bəşər inkişaf etdikcə idman da onunla bərabər boy atıb böyümüşdür. Dünyanın hər yerində, yaşından asılı olmayaraq, hamı idmanı və idman yarışlarını sevir. İdman təkcə fiziki cəhətdən insanların güclənməsinə və inkişaf etməsinə səbəb olmur, həmçinin onları gündəlik həyatda daha hazırlıqlı və mütəşəkkil edir.

İdman sağlam ruhda sağlam bədənin qorunub saxlanılmasına xidmət edir. Bizim hamımızın məşq etməyə ehtiyacımız vardır. Hətta siz idman karyerası barədə düşünməsəniz belə, idmanla məşğul olmaq sizə zəruridir. Müntəzəm olaraq müxtəlif bədən hərəkətlərini etmək sizə sağlamlıq və gözəl enerji verər. Ona görə də daim yorğunluqdan və xoşagəlməz əhvaldan şikayət etmək əvəzinə bir çox fiziki hərəkətlər etmək məsləhət görülür.

Bu yazımızda sizə saysız-hesabsız uğurları ilə ölkəmizi dünyada tanıdan, idman sahəsindəki nailiyyətləri ilə adını tarixə yazdırmağı bacaran azərbaycanlıdan – Pərviz Hüseynovdan bəhs edəcəyik. Gəlin onun kimliyi ilə yaxından tanış olaq.

Hüseynov Pərviz Şahin oğlu 1979-cu ilin 6 oktyabrında Sabirabad rayonunda dünyaya göz açıb. Ali təhsilli idmançımız 2000-ci ildə Azərbaycan Dövlət Texniki Universitetinin Avtomexanika fakültəsini bitirib. Ailəlidir, iki övlad atasıdır.

Kiçik yaşlarında idmanın güləş növü ilə məşğul olan Pərviz Hüseynov 1993-cü ildən etibarən Şərq əlbəyaxa döyüş növü ilə məşğul olmağa başlayıb. Hələ kiçik yaşlarından ailəsinin və yaxınlarının fəxri olan Pərviz bəy daha sonra peşəkar idmançı kimi Bütöv Azərbaycanın fəxri olub.

İdmançımız Azərbaycan Qocyu-ryu Okinava Karate-do və Kobudo Kempo növləri idman Federasiyasında milli yığmanın üzvü, 2015-ci ildən Federasiyada katib, 2018-ci ildən isə baş katib vəzifəsində çalışır. Pərviz bəy kontakt-karate üzrə I dan, Shotokan-karate-do üzrə I dan, Qocyu-ryu Karate-do, Kobudo-Kempo-ryu idman növləri üzrə III dan Qara kəmər sahibidir. O, bütün bunlarla kifayətlənməyərək, uğurlarının sayını artırmaqda davam edir. İdman üzrə keçirilən müxtəlif ölkədaxili və Beynəlxalq Master Klas Seminarlarında iştirak edib. Sertifikatlara və müxtəlif diplomlara layiq görülüb.

Beynəlxalq Federasiyalar tərəfindən fəxri diplomlarla təltif olunub. 1997-ci ildə Shotokan-karate-do üzrə Respublika dərəcəli hakim, məşqçi (müəllim), 2011-ci ildə isə Qocyu-ryu karate-do, Kobudo və Kempo-ryu idman növləri üzrə hakimlik dərəcəsinə yiyələnib. Azərbaycan Respublakasının Gənclər və İdman Nazirliyi tərəfindən 2015-ci ildə idman ustası adına, 2018-ci ildə isə Azərbaycan Respublikasının Əməkdar İdman ustası fəxri adına layiq görülən Pərviz Hüseynov Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən də Fəxri fərmanla təltif olunub.

Pərviz bəyin uğurları saydıqlarımızla bitmir. O, dəfələrlə Bakı və respublika çempionatlarının qalibi, 2 dəfə Avropa çempionu, 5 dəfə Dünya çempionu, 2 dəfə Dünya çempionatının mükafatçısı və 1 dəfə Dünya kubokunun qalibi olaraq, xalqının, ailəsinin, sevdiklərinin onunla təkrar-təkrar qürur duymaları şərəfinə nail olmuşdur.

Bütün bu uğur və nailiyyətlər dəyərli idmançımızın idmana olan maraq və həvəsini daha da artırır, onu yeni nailiyyətlər əldə etməyə sövq edir.

Pərviz Hüseynov bu Azərbaycan Qocyu-ryu Okinava Karate Do və Kobudo –Kempo Növləri Federasiyasının prezidenti Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi, XIX dan kəmər sahibi Tarverdi Allahverdiyevin rəhbərliyi altında qeyd olunan idman növü üzrə bilik və bacarığını artıraraq, daim idman formasını və döyüş qabiliyyətini qoruyub saxlayır.

***Səbiqə DAVUDOV***